# Qrossmeyster Teymur Rəcəbova



Əziz Teymur,

“Airthings Masters” şahmat turnirində qələbə qazanmağın münasibətilə səni səmimi qəlbdən təbrik edirik.

Sənin bu yarış zamanı peşəkarlıq, iradə və əzmkarlıq nümayiş etdirərək qazandığın inamlı qələbə Azərbaycan xalqını sevindirdi. Sənin bu uğurun, eyni zamanda, xalqımızın yüksək intellektual potensialının bariz göstəricisidir.

Sənə ən xoş arzularımızı yetirir, gələcək uğurlar və yeni-yeni şahmat zirvələrini fəth etməyi diləyirik.

Hörmətlə,

**İlham Əliyev və Mehriban Əliyeva**

*Bakı şəhəri, 3 yanvar 2021-ci il*

## Teymur Rəcəbov Levon Aronyanı məğlub etdi

### Azərbaycanlı qrossmeyster “Airthings Masters” turnirinin qalibi oldu

Azərbaycan şahmatçısı Teymur Rəcəbov “Champions Chess Tour” çərçivəsində rapid üzrə onlayn keçirilən “Airthings Masters” turnirinin finalında erməni rəqibi Levon Aronyanı 4,5:2,5 hesabla məğlub edərək qalib olub.

AZƏRTAC xəbər verir ki, şahmatçımız final mərhələsinin cavab matçında rəqibi L.Aronyanla birinci partiyada heç-heçə edib, ikinci partiyada qələbə qazanıb. Üçüncü partiyada daha bir heç-heçəyə imza atan şahmatçımız turnirdə birinci yeri tutub.

Qeyd edək ki, T.Rəcəbov dünən keçirilmiş birinci matçda rəqibinə 2,5:1,5 hesabla qalib gəlib.

Xatırladaq ki, “Airthings Masters” turnirinin seçmə mərhələsini 6 xalla beşinci yerdə başa vuran şahmatçımız dörddəbir finalda Rusiya təmsilçisi Yan Nepomnyaşini, yarımfinalda bu ölkənin digər şahmatçısı Daniil Dubovu məğlub edib.

## “Qalib gəldiyim üçün xoşbəxtəm”

### Teymur Rəcəbov qələbəsi barədə danışarkən belə deyib

Bu gün həqiqətən çox çətin idi. Sona qədər diqqətimi itirməməyə çalışdım.

AZƏRTAC xəbər verir ki, bu sözləri azərbaycanlı şahmatçı Teymur Rəcəbov “Champions Chess Tour” çərçivəsində rapid üzrə onlayn “Airthings Masters” turnirindəki qələbəsi barədə danışarkən deyib.

O qeyd edib ki, rəqibi Levon Aronyan mükəmməl oyun nümayiş etdirib: “Levon Aronyan çox yaxşı oyun nümayiş etdirdi. Mən əlimdən gələni etdim. Həqiqətən çətin bir matç oldu və qalib gəldiyim üçün xoşbəxtəm”.

Teymur Rəcəbov onu da bildirib ki, turnirdə qalib ola biləcəyinə inanırdı. O, ilk partiyanın onun üçün xoşagəlməz olduğunu, əsəbləşsə də amma sakit olmağa və mövqeyini qorumağa çalışdığını bildirib.